

## Kazımova Natella Saleh qızı
## (1939-2012)

2019-cu il iyun ayının 21-də üzvi və neft-kimya sahəsində görkəmli alim, kimya elmləri doktoru, professor Natella Saleh qızı Kazımovanın anadan olmasının 80 ili tamam olur.

N.S. Kazımova 1939-cu il iyun ayının 21-də Bakı şəhərində, qulluqçu ailəsində anadan olmuşdur.

O, 1957-ci ildə orta məktəbi qızıl medalla, 1962-ci ildə isə Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) kimya fakültəsini fərqlənmə diplomu ilə bitirmişdir.

N.S. Kazımova 1969-cu ildə "Ariltio- və tsikloheksiloksisilanların sintezi və tədqiqi" mövzusunda namizədlik, 1992-ci ildə isə "Mineral və sintetik yağlara yüksək temperaturda işləyən antioksidantlar" mövzusunda neft kimyası ixtisası üzrə doktorluq dissertasiyasını müvəffəqiyyətlə müdafiə etmişdir.

O, 1967-ci ildən ömrünün sonuna qədər Aşqarlar Kimyası İnstitutunda kiçik, böyük, aparıcı və baş elmi işçi vəzifələrində çalışmışdır.

N.S. Kazımovanın elmi fəaliyyəti mineral və sintetik yağlara oksidləşməyə davam gətirən aşqarların sintezi və onların tətbiqinə həsr edilmişdir.

O, mineral və yüksək temperaturda işləyən sintetik yağlara aşqar kimi əlavə edilən müxtəlif azot, kükürd, silisium tərkibli üzvi birləşmələrin sintezi və tədqiqi üzrə elmi tədqiqatlar aparmışdır.

N.S. Kazımova tərəfindən ditiofosfat tipli külsüz, eləcə də müasir aviasiya mühərrikləri üçün 225–240 °C temperaturda işləyən yeni antioksidantlar işlənilmiş və onların tətbiqi tövsiyə edilmişdir.

O, dərin biliyə, mürəkkəb nəzəri və tətbiqi məsələləri həll etmək qabiliyyətinə malik olan bir alim kimi əməksevərliyi ilə fərqlənən şəxsiyyətlərdən idi.

Natella Kazımova 150-dən çox elmi əsərin, o cümlədən 65 müəlliflik şəhadətnaməsi və 6 Azərbaycan patentinin müəllifidir. O, dəfələrlə respublika və beynəlxalq konfranslarda elmi məruzələrlə çıxış etmişdir. Onun gənc elmi kadrların hazırlanmasında da xüsusi xidmətləri olmuşdur. Belə ki, o, üç elmlər namizədi və bir nəfər elmlər doktoru yetişdirmişdir.

Natella Kazımova öz işində tələbkar, həm də dəqiq və məsuliyyətli olmaqla yanaşı, qayğıkeş və təvazökar insan idi. Bu həssas insanın xatirəsi onu tanıyanların qəlbində daim yaşayacaqdır.

Allah rəhmət eləsin!

**AMEA-nın akademik Ə.M.Quliyev**
**adına Aşqarlar Kimyası**
**İnstitutunun əməkdaşları**